**«TƏSDİQ EDİLMİŞDİR»**
Azərbaycan Respublikasının Prezidenti
yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi
Əmr 036
«06» mart 2000-cı il
Sədr _______________ H. Babayev

# İnvestisiya fondları ilə depozitari arasında bağlanan depozitar müqaviləsinin əsas müddəalarına dair

# T Ə L Ə B L Ə R

## I.Ümumi müddəalar

1.1. Bu Tələblər «İnvestisiya fondları haqqında» Azərbaycan Respublikasının Qanununun, «İnvestisiya fondları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 05 yanvar 2000-ci il tarixli 245 nömrəli Fərmanının, Azərbaycan Respublikası Prezidentinin 14 may 1997-ci il tarixli 579 nömrəli Fərmanı ilə təsdiq edilmiş «İxtisaslaşdırılmış çek investisiya fondları haqqında Əsasnamə»nin, Azərbaycan Respublikası Prezidentinin 08 noyabr 1999-cu il tarixli 202 nömrəli Fərmanı ilə təsdiq edilmiş «İxtisaslaşdırılmış çek investisiya fondlarının fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi Qaydaları»nın və Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1999-cu il tarixli 161 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında» Əsasnamənin əsasında hazırlanmışdır.

1.2. Depozitar müqaviləsinin əsas müddəaları – depozitar müqavilə-sinin əsas şərtlərini və Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan digər şərtləri müəyyən edir. Depozitar müqaviləsi investisiya fondu, o cümlədən çek investisiya fondu ilə depozitari arasında bağlanılır və aşağıdakıları nəzərdə tutur.

## II. Müqavilənin predmeti

2.1. İnvestisiya fondu ilə depozitari arasında bağlanan müqavilənin predmetinə uyğun olaraq depozitari fondun sərəncamı ilə müəyyənləşdirilmiş hüdudlarda onun hesabına qiymətli kağızlarla (o cümlədən, özəlləşdirmə çekləri ilə) müvafiq əməliyyatı icra etməyi öhdəsinə götürür.

Depozitar fondla bağlanmış müqavilənin şərtlərinə, fondun nizamnaməsinə, investisiya bəyannaməsinin tələblərinə (qiymətli kağız-ların mübadiləsi, onların alınması və satışına olan məhdudiyyətlər daxil olmaqla) uyğun olaraq fondun qiymətli kağızları ilə əməliyyatları həyata keçirir.

## III. Tərəflərin vəzifələri

3.1. Depozitarın vəzifələri:

- fondun qiymətli kağızları ilə (o cümlədən, özəlləşdirmə çekləri ilə) əməliyyatları həyata keçirmək;

- fondun və üçüncü şəxs tərəfindən alınmış fondun qiymətli kağızlarını məsuliyyətlə saxlamaq;

- fondun qiymətli kağızlarının mühafizəsini və qaytarılmasını, bu əmlakın hərəkəti ilə bağlı uçot və əməliyyatların aparılmasını təmin etmək;

- fondun qiymətli kağızlarının uçotu ilə bağlı ilkin sənədləri saxlamaq və fonda təqdim etmək;

- alınmış qiymətli kağızların və mülkiyyət haqqında şəhadətnamənin vaxtında verilməsini və uçotunun aparılmasını təmin etmək;

- səhmdarların ümumi yığıncaqı haqqında bildirişin alınması faktını və həmçinin fonda məxsus olan qiymətli kağızlara aid məlumat və sənədləri rəsmi qaydada qeyd etmək;

- müvafiq tapşırıqlar əsasında təsdiq edilmiş etibarnamələri təqdim etmək;

- fonda məxsus qiymətli kağızlarla əməliyyatların həyata keçiril-məsində fondun müvafiq tapşırıqları və depozitar müqaviləsində göstərilmiş səlahiyyətlərdən kənarlaşmamaq;

- fond müdirinin Azərbaycan Respublikasının qanunvericiliyinə, fondun nizamnaməsi, investisiya bəyannaməsi və fondun fəaliyyətini tənzimləyən digər sənədlərə zidd olan hərəkətləri haqqında fondun müşahidə şurasına vaxtında məlumat vermək;

- depozitar müqaviləsinin şərtlərinin yerinə yetirilməsi ilə əlaqədar alınan məlumatın məxfiliyini saxlamaq;

- fondun qiymətli kağızlarının və hərəkəti haqqında ayrıca uçot aparmaq və hesabat tərtib edib hər rübün sonunda fondun müşahidə şurasına təqdim etmək. Fondun

fəaliyyəti haqqında uçot və hesabat sənədləri ilə fondun səhmdarları, onların nümayəndələri və auditorları bu sənədlərlə müəyyən edilmiş qaydada tanış etmək.

3.2. Fondun vəzifələri:

- fondun müşahidə şurası depozitariyə təqdim etdiyi hesabatda aşağıdakıları mütləq əks etməlidir;

- hesabat dövrünün başlanğıcı və sonuna investisiya institutlarının xalis aktivlərinin qiymətləndirilməsi qaydaları haqqında əsasnaməyə uyğun, müəyyən edilmiş dəyərləri göstərilməklə fondun investisiyalarının siyahısı;
- hesabat dövründə investisiya gəliri (fondun investisiyalarına görə faiz və dividendlərindən gəlir);

- fondun portfelini təşkil edən qiymətli kağızların bazar qiymətlərinin qalxması (düşməsi) ilə əlaqədar olaraq (əldə edilmiş gəlir və ziyanlar nəzərə alınmaqla) fondun aktivlərinin dəyərinin artması (azalması);
- fondun investisiya portfelindəki qiymətli kağızların satışından əldə edilmiş investisiya gəliri və mənfəət (ziyan) daxil edilməklə fondun ümumi gəlirlərinin məbləği;

- hesabat dövrü ərzində və hesabat gününə fondun buraxılmış, satılmış və mübadilə edilmiş səhmlərinin miqdarı;

- hesabat dövründə fondun xərcləri;

- fondun ödənilmiş bir səhminə düşən fondun xalis aktivlərinin dəyəri;
- fondun xərclərinə xalis aktivlərinin dəyəri nisbəti;

- hesabat dövrü ərzində fondun ümumi gəlir məbləğinin hesabat dövrünün sonuna xalis aktivlərinin qiymətinə nisbəti;

- hesabat gününə fondun səhmlərinin cari qiyməti.

Müqavilənin bağlandığı müddət, onun dəyişdirilməsi, xitam edilməsi, tərəflərin məsuliyyəti qaydaları və s., həmçinin bu müqavilədə öz əksini tapmalıdır.

3.3. Depozitarın əməkdaşları fondun müşahidə şurasına daxil ola bilməzlər;

## IV. Məsuliyyət

4.1. Bu tələbləri pozanlar Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

## V. Qüvvəyə minməsi qaydası

5.1. Bu Tələblər təsdiq olunduğu gündən qüvvəyə minirlər.